2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Fuad Cavadovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2025-ci il tarixli 2 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 6 yanvar 2025-ci il

Mən, ekspert qrupunun üzvü Fuad Cavadov 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 56 saylı Şabran-Xaçmaz seçki dairəsindən Rəhimli bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Əfqan Rahib oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 56 saylı Şabran-Xaçmaz seçki dairəsi dairə seçki komissiyasının (bundan sonra - dairə seçki komissiyası) 4 yanvar 2025-ci il tarixli 46/114saylı qərarından verdiyi 6 yanvar 2025-ci il tarixli 02 saylı müraciətini araşdıraraq **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrində və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”da nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Araşdırmada və iclasda iştirak etməkdən imtina etmişdir.

Ə.R.Məmmədov müraciətində göstərmişdir ki, onun hər hansı bir əmlakı (pay torpağı istisna olmaqla) və həmin əmlakla bağlı müqavilə üzrə gəliri olmamışdır. Bu səbəbdən işçi qrupunun verdiyi məlumat yanlışdır.

Dairə seçki komissiyası Rəhimli bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Ə.R.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 4 yanvar 2025-ci il tarixli 46/114 saylı qərarını onunla əsaslandırmışdır ki, namizəd təqdim etdiyi gəlirlərinin miqdarı və mənbəyi haqqında məlumatda bir illik dövr ərzində gəlirlərinin olmadığını göstərmiş, ancaq işçi qrupunun araşdırması zamanı onun həmin dövrdə qeyri-sahibkarlıq fəaliyyətindən 396 manat gəlirinin olduğu aşkar edilmişdir.

Araşdırmanın nəticəsi olaraq işçi qrupunun üzvləri tərəfindən verilmiş 7 yanvar 2025-ci il tarixli rəydə bələdiyyə üzvlüyünə namizəd Ə.R.Məmmədovun gəlirləri barəsində təqdim etdiyi məlumatda göstərmədiyi, lakin qeyri-sahibkarlıq fəaliyyətindən 28.11.2023-cü il tarixdən 28.11.2024-cü il tarixədək olan dövr üzrə 276 manat məbləğində gəlirlərinin olduğu aşkar edilmişdir.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədlərin, siyasi partiyanın, siyasi partiya bloklarının bu Məcəllənin 57-ci və 58-ci maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Seçki Məcəlləsinin 216.1-ci maddəsinə görə bələdiyyə üzvlüyünə namizədlər bu Məcəllənin 60-cı maddəsində göstərilən qaydada qeydə alınırlar.

Göstərilənlərə əsasən müəyyən edilir ki, dairə seçki komissiyası tərəfindən Ə.R.Məmmədovun Rəhimli bələdiyyəsinə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarı əsaslı olmuşdur. Ona görə də şikayətin təmin edilməsi üçün hüquqi əsaslar mövcud deyildir.

Araşdırmanın nəticəsi olaraq namizəd tərəfindən namizədliyinin qeydə alınması üçün təqdim olunmuş seçki sənədlərində gəlirləri barədə məlumatların göstərilməməsi təsdiqini tapdığından müraciət əsassız hesab edilərək təmin edilməməli, Ə.R.Məmmədovun namizəd kimi qeydə alınmasından imtinaya dair 56 saylı Şabran-

Xaçmaz seçki dairəsi dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 46/114 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 216-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Rəhimli bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Əfqan Rahib oğlunun 6 yanvar 2025-ci il tarixli 02 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 56 saylı Şabran-Xaçmaz seçki dairəsi dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 46/114 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Fuad Cavadov